# Vətəndaş Hüquqları İnstitutu

**Maraqlı tərəfin Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurasının Universal Dövri İcmalı üzrə təqdimatı**

**Azərbaycan:44-cü sessiya**

**06 Noyabr 2023 - 17 Noyabr 2023**

**Təşkilat haqqında:**

Vətəndaş Hüquqları İnstitutu (VHİ) 2012-ci ilin aprelin 1-də təsis edilib. Vətəndaş Hüquqları İnstitutu paytaxt Bakıda və bölgələrdə yaşayan gənclərin inkişafı, vətəndaşların hüquqlarının müdafiəsi, hüquqi maarifləndirilmə və vətəndaş fəallığının artırılması istiqamətində çalışır. Hazırda ölkənin iki – Gəncə (qərb) və Ağdam (mərkəz) bölgələrində nümayəndəlikləri, həmçinin vətəndaşları maarifləndirmək üçün https://benefisiar.org və https://gancapost.info/ vebportalları fəaliyyət göstərir.
VHİ ABŞ, Böyük Britaniya, Avropa İttifaqının Bakı nümayəndəliyi, İnsan Haqqları Evi Fondu (Norveç), "Freedom Now" təşkilatları ilə əməkdaşlıq edir.
VHİ 2020-cu ildən **Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti_Platormasına** üzvdür.

**Contact: Bashir Suleymanli, chair of Institute For Citizens Rights**
Address:
E-mail: suleymanli.bashir@gmail.com
mob: +994503438866
Web: https://vhi.az/
Facebook: https://www.facebook.com/profile.php?id=100064404440843

**Xülasə:**

1. İlk öncə onu qeyd edək ki, Azərbaycan Respublikası İqtisadi, Mədəni və Sosial Hüquqlar haqqında BMT Konvensiyasınınnın 6, 7 və 9-cu maddələri, həmçinin həmin Konvensiyanın 16 və 17-ci maddələrinə uyğun olaraq əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün minimum əmək haqqının, işsizlikdən sığorta ödənişinin və digər sosial ödənişlərin məbləğinin əhalinin yaşam standartlarına uyğunlaşdırılmasını, habelə kişilər və qadınlar üçün müəyyən olunmuş müxtəlif pensiya yaşının qadınların hüquqlarından istifadəsinə təsirini öyrənməyi, o cümlədən müəyyən edilmiş fərqli pensiya yaşının aradan qaldırılması ilə bağlı tövsiyələrə uyğun olaraq üzərinə öhdəliklər götürmüşdür. [1]
2. Vətəndaş hüquqları İnstitutu tərəfindən təqdim edilən bu hesabat Azərbaycanın İqtisadi, Mədəni və Sosial hüquqlar haqqında Konvensiyaya uyğun olaraq minimum əmək haqqının, işsizlikdən sığorta ödənişinin və digər sosial ödənişlərin məbləğinin əhalinin yaşayış standartlarına uyğunlaşdırılması, həmçinin kişilər və qadınlar arasında müxtəlif pensiya yaşı fərqinin qadınların hüquqlardan istifadə etməsinə təsirini öyrənməyi, eyni zamanda kişi və qadınlar arasında müxtəlif pensiya yaşının aradan qaldırılması ilə bağlı üzərinə götürdüyü və qəbul edilən tövsiyələrin hansı səviyyədə icra olunduğunu və hansı vəziyyətdə olduğunu təhlil edir.
3. BMT-nin İqtisadi, Mədəni və Sosial Hüquqlar Komitəsi İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Konvensiyanın 16 və 17-ci maddələrinə əsasən Azərbaycanın təqdim etdiyi üçüncü və dördüncü hesabatlarına baxmış və iştirakçı dövlətə minimum əmək haqqının həm dövlət, həm də özəl sektor üzrə bütün işçilərə şamil edilməsini təmin etmək, həmçinin minimum əmək haqqının yaşam standartlarına uyğunlaşdırılması üçün vaxtaşırı nəzərdən keçirilməsinin və əhalinin layiqli həyat səviyyəsinin təmin olunması üçün tədbirlər görməyi, eləcə kişilər və qadınlar arasında olan fərqli pensiya yaşının qadınların hüquqlardan bərabər istifadəsinə təsirini öyrənməyi və müxtəlif pensiya yaşının aradan qaldırılmasına dair tövsiyələr verərək yekun qeydlər qəbul etmişdir. [2]

---

[1] Concluding observations on the thirth periodic report of Azerbaijan, adopted by Committee on Economic, Social and Cultural Concluding observations on the 3rd periodic report of Azerbaijan, adopted by the Committee at its 50th session, 29 April-17 May 2013 : (un.org) (page 3 , 4) ; Concluding observations on the fourth periodic report of Azerbaijan, adopted by Committee on Economic, Social and Cultural at its 57th meeting, held on 15 October 2021 G2131332.pdf (un.org) (page 6)

[2] Concluding observations on the thirth periodic report of Azerbaijan, adopted by Committee on Economic, Social and Cultural Concluding observations on the 3rd periodic report of Azerbaijan, adopted by the Committee at its 50th session, 29 April-17 May 2013 : (un.org) (page 3 , 4) ; Concluding observations on the fourth periodic report of Azerbaijan, adopted by Committee on Economic, Social and Cultural at its 57th meeting, held on 15 October 2021 G2131332.pdf (un.org) (page 6)

**İqtisadi, Mədəni və Sosial Hüquqlar Komitəsinin 2013 və 2021-ci il üzrə UPR tövsiyələrinin Azərbaycan Respublikası tərəfindən icra vəziyyəti:**

1) Minimum əmək haqqının və sosial ödənişlərin yaşayış minimumuna uyğunlaşdırılması:

**Tövsiyə:**

1. Komitə iştirakçı dövlətə minimum əmək haqqının və sosial ödənişlərin məbləğinin yaşayış minimumuna uyğunlaşdırılmasının effektiv sisteminin yaradılmasını və vətəndaşlar üçün layiqli həyat səviyyəsinin təmin edilməsini tövsiyə edir.[3]

**İcra səviyyəsi:**

2. Azərbaycanın İMSH Komitəsinə təqdim etdiyi 3-cü dövri hesabata əsasən minimum əmək haqqı müəyyən edilərkən ilkin olaraq dövlətin maliyyə və iqtisadi vəziyyəti, ölkə ərazisində əmək haqqının ümumi səviyyəsi, inflyasiya, minimum istehlak səbəti və sosial müavinət və pensiyaların mövcud məbləği nəzərə alınır.
3. Minimum əmək haqqının müəyyən edilməsi zamanı işçilərin və onların ailə üzvlərinin ehtiyacları, ölkədə orta aylıq əmək haqqının, yaşayış minimumunun, sosial ödənişlərin ümumi səviyyəsi və digər sosial qrupların yaşayış səviyyəsinin nəzərə alınması vacib olan elementlərdəndir. Buradan aydın olur ki, minimum əmək haqqı və digər sosial ödənişlərin məbləği vətəndaşların yaşayış minimumuna uyğunlaşdırılmalıdır.[4]
4. Azərbaycan Konstitusiyasına görə insan və vətəndaş hüquq və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir.[5] AR Konstitusiyasına (maddə 35) və Əmək Məcəlləsinə (maddə 155) görə işçinin heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır. Əmək haqqına əlavələr, artımlar, habelə iş vaxtından kənar vaxtlarda görülən işlərə görə verilən ödəmələr və digər ödənclər minimum əmək haqqının məbləğinə daxil edilmir. İşçilərə minimum əmək məbləğinin ödənilməsinə nəzarəti Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində olan Dövlət Əmək Müfəttişliyi həyata keçirir. Minimum əmək haqqının və sosial ödəmələrin məbləğinin artırılmasını tənzimləmək üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən müvafiq sərəncamlar qəbul edilir və qanunvericiliyə müvafiq dəyişikliklər edilir. 2017-ci ildə "Əmək pensiyaları haqqında Qanuna edilən dəyişikliyə görə əmək pensiyasının minimum məbləği həmin qanunun 29.1-ci maddəsinə uyğun

---

[3]Concluding observations on the thirth periodic report of Azerbaijan, adopted by Committee on Economic, Social and Cultural [Concluding observations on the 3rd periodic report of Azerbaijan, adopted by the Committee at its 50th session, 29 April-17 May 2013 : (un.org) (page 4)] ; Concluding observations on the fourth periodic report of Azerbaijan, adopted by Committee on Economic, Social and Cultural at its 57th meeting, held on 15 October 2021 [G2131332.pdf (un.org) (page 6)]

[4] Minimum wage fixing Convention, 1970. Article 3 https://www.ilo.org/dyn/normlex/en/f?p=NORMLEXPUB:12100:0::NO::P12100_ILO_CODE:C131

[5] AR Konstitusiyası, Article 12 https://www.e-qanun.az/framework/897

olaraq ildə bir dəfə ölkə üzrə orta aylıq nominal əməkhaqqının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən illik artım tempinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən indeksləşdirilir. Belə ki, ölkədə pensiyaçıların sosial müdafiəsini daha da gücləndirmək məqsədilə Prezidentin müvafiq sərəncamları ilə 2022-ci ilin 1 yanvar tarixindən orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq bütün növ əmək pensiyalarının sığorta hissəsi indeksləşdirilərək artırılmış, qulluq stajına görə əlavələr alan əmək pensiyaçıları istisna olmaqla digər əmək pensiyaçılarına 2022-ci il üzrə 200 manat (109 avro) məbləğində maddi yardım, qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarına isə 2022-ci ildə aylıq əmək pensiyasının 10 faizi məbləğində aylıq maddi yardım təyin olunmuşdur. [6]

**Təkmilləşmə:**

5. Azərbaycanın İqtisadi, Mədəni və Sosial Hüquqlar Komitəsinə təqdim etdiyi 4-cü hesabatına[7] əsasən 2003-cü ildən 2017-ci ilə qədər minimum əmək haqqı 14,4 faiz, orta aylıq pensiya 8,6 faiz, orta aylıq əmək haqqı isə 6,9 faiz artmışdır. Hal-hazırda ölkə üzrə minimum əmək haqqının məbləği 345 manat (188 avro) minimum əmək pensiyasının məbləği isə 280 manatdır (152 avro). Belə ki, müvafiq icra hakimiyyəti orqanının sərəncamına uyğun olaraq 2023-cü il yanvarın 1-dən minimum aylıq əməkhaqqının məbləği 15 faiz artırılaraq 300 manatdan (163,09 avro) 345 manata (188 avro), minimum pensiya məbləği isə 16,7 faiz artırılaraq 240 manatdan (130 avro) 280 manata (152, avro) yüksəldilib.[8]
6. Həm dövlət, həm də özəl sektorda fəaliyyət göstərən işçilərin əmək haqqı minimum əmək haqqının məbləğindən aşağı ola bilməz. Dövlət Statistika Komitəsinin məlumatına görə 2022-ci il avqustun 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 29,4 min nəfər və ya 1,7 faiz artaraq 1719,1 min nəfər olmuş, onlardan 897,5 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 821,6 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.[9]
7. Minimum əmək haqqının məbləğinin artması ilə işçilərin əmək haqqından tutulan məcburi sosial sığorta və işsizlikdən sığorta haqları da artmış olur. Hal-hazırda qanunvericiliyə nəzər saldıqda minimum əmək haqqının və sosial ödənişlərin məbləğinin artmasını müşahidə edə bilərik. Həmin artımlar Azərbaycan dövlətinin Komitənin tövsiyələrinə uyğun olaraq minimum əmək haqqı və sosial ödəmələrin minimum məbləğinin əhalinin yaşayış minimumuna uyğunlaşdırılması və onların layiqli həyat səviyyəsinin təmin

---

[6] Ölkədə sosial təminat haqqında Dövlət Statistika Komitəsinin hesabatı, 2022 https://www.stat.gov.az/news/index.php?id=5165

[7] Fourth periodic report submitted by Azerbaijan under articles 16 and 17 of the Covenant, due in 2018, G2131332.pdf (un.org) (page 30)

[8] https://www.bbc.com/azeri/azerbaijan-64175554

[9] İqtisadiyyatda işləyənlərin sayı və əmək haqqı barədə Dövlət Statistika Komitəsinin hesabatı, 2022 https://stat.gov.az/news/index.php?lang=az&id=5293

edilməsi üçün üzərinə götürdüyü öhdəliklərə uyğun olaraq həyata keçirilir. Bu zaman meydana gələn əsas problemlərdən biri ondan ibarətdir olur ki, artımlar olsa da, ödənişlər əhalinin yaşayış minimumuna uyğunlaşdırılmamışdır.

8. Yaşayış minimumu işçilərə və onların ailə üzvlərinə əsas ehtiyaclarını ödəməyə imkan verən haqqdır.[10] Layiqli həyat səviyyəsinin təmin edilməsi üçün vacib olan elementlərə ərzaq, qeyri-ərzaq məhsulları, istifadə edilən xidmətlər və digər zəruri ehtiyaclar daxildir.[11]
9. "Yaşayış minimumu haqqında" Qanuna əsasən insanın sağlamlığının və həyat fəaliyyətinin minimum səviyyəsi üçün zəruri olan ərzaq, qeyri-ərzaq malları və xidmətlərin müəyyən edilmiş toplusu və icbari ödənişlərin cəmindən ibarət sosial norma yaşayış minimumunu təşkil edir. Ərzaq və qeyri-ərzq məhsullarının, xidmətlərin, habelə icbari ödənişlərin məbləğində ciddi bahalaşmalar olduğunu müşahidə etsək, aydın olur ki, vətəndaşlar üçün nəzərdə tutulan artımlar onların yaşayış minimumuna uyğun tənzimlənməyib. Əhali üçün zəruri olan gündəlik tələbat məhsullarının, habelə kommunal ödənişlərin qiymətlərinin artımı və vətəndaşların digər ehtiyaclarının yaranması müəyyən olunan minimum əmək haqqı və pensiyaların minimal məbləği ilə əhalinin tələbatları qarşılanmır. Bununla da dövlətin üzərinə götürdüyü həmin öhdəliyin icrasında ciddi problemlər olduğunu və üzərinə götürdüyü öhdəliyin lazimi qaydada icra edilmədiyini görürük.

**2) Qadın və kişilər arasında pensiya yaşı fərqinin aradan qaldırılması:**

**Tövsiyə və narahatlıq:**

10. Komitə iştirakçı dövlətə kişilər və qadınlar üçün müəyyən olunmuş müxtəlif pensiya yaşlarının qadınların hüquqlardan bərabər istifadəsinə təsirini öyrənməyi tövsiyə edir. Həmçinin komitə kişilər və qadınlar üçün müəyyən edilmiş fərqli pensiya yaşının olmasından da narahatlılığını bildirir.[12]

**İcra səviyyəsi:**

11. Komitə tərəfindən qeyd olunan tövsiyə və narahatlılığa görə Azərbaycan dövlətinin təqdim etdiyi yekun dövrü hesabatında qeyd edilir ki, "Əmək Məcəlləsi və "Əmək Pensiyaları haqqında" Qanuna uyğun olaraq pensiyaçılara əmək haqqı və pensiya məbləği tam həcmdə ödənilir, işçinin pensiyaya çıxamsı ilə əlaqədar əmək haqqının azaldılmasına yol verilmir. Həmçinin əmək münasibətlərində olan pensiyaçı qadın və kişilər digər işçilər üçün nəzərdə tutulmuş əmək hüquqlarından tam həcmdə istifadə edirlər. Həmçinin kişilər və qadınlar

---

[10] United Nations Global Compact, Paper Ensuring a Living Wage is an Essential Aspect of Decent Work, https://unglobalcompact.org/what-is-gc/our-work/livingwages

[11] Global Living Wage Coalition, the Anker Methodology for Estimating a Living Wage https://www.globallivingwage.org/about/anker-methodology/

[12] Concluding observations on the thirth periodic report of Azerbaijan, adopted by Committee on Economic, Social and Cultural Concluding observations on the 3rd periodic report of Azerbaijan, adopted by the Committee at its 50th session, 29 April-17 May 2013 : (un.org) (page 3, 4)

arasında pensiya yaşının müəyyən edilməsində olan fərqin aradan qaldırılması üçün 2017-ci ildə "Əmək pensiyaları haqqında" Qanuna əlavə və dəyişikliklər edilmişdir.[13]

12. Vətəndaşların pensiya hüququnu tənzimləyən köhnə qanunvericilik aktlarına nəzər salsaq, görə bilərik ki, yaşa görə pensiya almaq hüququ verən yaş həddi kişilər üçün 60 yaş, qadınlar üçün isə 55 yaş müəyyən edilirdi, lakin sonradan həmin yaş həddi artırıldı.[14] "Əmək pensiyaları haqqında" Qanuna 10 mart 2017-ci ildə edilən dəyişikliyə [15]görə həmin yaş həddi kişilər üçün 63 yaş, qadınlar üçün isə 60 yaş ilə əvəz edilmiş və həmin yaş həddi kişilər üçün 2017-ci il iyulun 1-dən başlayaraq 2021-ci il iyulun 1-dək artırılaraq 65 yaşa çatdırılmışdır. Qadınlar üçün isə 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-dək hər il 6 ay artırılır. Hesab edirik ki, həmin yaş həddinin artırılması məqsədəmüvafiq deyil. Belə ki, 1970-ci ildən 2021-ci ilə qədər Azərbaycanda orta ömür həddinin 66-73 yaş arası[16] dəyişdiyini nəzərə alsaq görərik ki, şəxs pensiya yaşına çatdıqda yaşa görə əmək pensiyası almaq hüququndan ortalama 7 il istifadə edə bilir. Şəxsin yaşa görə əmək pensiyası almaq üçün tələb olunan pensiya kapitalını toplamasına (40 320 AZN), yaxud da 25 il sığorta stajına malik olmasına baxmayaraq onun ortalama 7 il yaşa görə əmək pensiyası alması qeyd olunan tələblərdən ciddi fərqlənir. Ona görə də pensiya yaşının artırılmasını məqsədəuyğun hesab etmirik.

**Təkmilləşmə:**

13. Belə ki, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 10 mart tarixli, 543-VQD saylı Qanununun 1.13-cü maddəsinə əsasən bu Qanunun 7-ci maddəsində nəzərdə tutulmuş kişilərin yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2021-ci il iyulun 1-dək, qadınların yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-dək hər il 6 ay artırılır.
14. "Əmək pensiyaları haqqında" Qanunun 8-ci və 9-cu maddələrinə nəzər salsaq görərik ki, qanunda bir qrup kateqoriya şəxslər vardır ki, (beş və daha çox uşaq doğub, övladlığa və (və ya) qəyyumluğa götürüb onları səkkiz yaşınadək tərbiyə etmiş və böyütmüş qadınlar, əlilliyi müəyyən edilmiş uşağını səkkiz yaşınadək tərbiyə etmiş analar, Ana vəfat etdiyinə və ya ana ilə nikaha xitam verildiyinə, yaxud ana valideynlik hüququndan məhrum edildiyinə görə 5 və daha çox uşağı və ya əlilliyi müəyyən edilmiş uşağını növbəti nikah bağlamadan, təkbaşına səkkiz yaşınadək böyüdən ataların, habelə 5 və daha çox uşağı övladlığa götürüb təkbaşına səkkiz yaşınadək böyüdən ataların, həmçinin 5 və daha çox uşağı səkkiz yaşınadək böyüdən qəyyum kişilər, siyahısı AR Nazirlər Kabineti tərəfindən

---

[13] Fourth periodic report submitted by Azerbaijan under articles 16 and 17 of the Covenant, due in 2018 G1902002.pdf (un.org)
[14] Vətəndaşların pensiya təminatı haqqında qanun. Article 12 https://e-qanun.az/framework/7739)
[15] "Əmək pensiyaları haqqında" Qanun, Article 7 https://www.e-qanun.az/framework/11566#_edn25
[16] Dövlət statistika Komitəsinin Hesabatı https://www.stat.gov.az/source/demoqraphy/

təsdiq edilmiş xüsusilə zərərli və ağır olan iş yerlərində çalışan işçilər) pensiya haş həddi yalnız həmin şəxslər üçün müvafiq şərtlərə cavab verdikləri halda azaldıla bilər. Belə ki, həmin şəxslərin yaşa görə əmək pensiyası almaq hüququ yaş həddi 5 il azaldılmaqla yarana bilər. [17]

15. Yaşa görə əmək pensiyası hüququna malik olmağın ümumi şərtləri ondan ibarətdir ki, pensiya almaq üçün müraciət edən şəxs qanunda tələb olunan pensiya kapitalına (40 320 AZN), yaxud da 25 il sığorta stajına malik olmalıdır. Qeyd olunan şərtlərdən biri olduqda və müraciət edən şəxs pensiya yaşına çatdıqda (hal-hazırda kişilər üçün 65, qadınlar üçün 63 yaş) yaşa görə əmək pensiyası almaq hüququna malik olur.
16. Hal-hazırda isə kişilər üçün pensiya yaş həddi 65 yaş, qadınlar üçün isə 63 yaş müəyyən edilib. Qadınlar üçün pensiya yaş həddi 2027-ci il iyulun 1-dək 65 yaşa çatdırılacaq. Kişilər üçün isə pensiya yaş həddinin həmin tarixə artırılması nəzərdə tutulmamışdır və 65 yaş olaraq saxlanılacaq. Belə ki, kişilər üçün pensiya yaşının ən yüksək həddi 65 yaşdır.
17. Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkil aparatının (Ombudsman) 2022-ci il üzrə hesabatında qeyd olunur ki, Azərbaycan cəmiyyətində və ailədə qadının rolunun artması, habelə ailə qayğılarından irəli gələrək onun üzərinə düşən məsuliyyət nəzərə alınaraq, işləyən qadınların pensiya yaşının getdikcə artırılaraq 2027-ci il 1 iyul tarixinədək 65 yaş həddinə çatdırılması məqsədəmüvafiq hesab edilmir. [18]
18. DSK-nin məlumatına əsasən 2022-ci il iyulun 1-i vəziyyətinə Dövlət Sosial Müdafiə Fondunda 1159,3 min nəfər pensiyaçı qeydiyyatda olmuşdur ki, bu da ölkə əhalisinin 11,5 faizini təşkil edir. Onların 60,5 faizi yaşa, 26,6 faizi əlilliyə, 12,9 faizi isə ailə başçısını itirməyə görə pensiya alır. Təyin olunmuş aylıq pensiyaların orta məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,9 faiz, cari ilin əvvəli ilə müqayisədə isə 10,9 faiz artaraq 368,0 manat təşkil etmiş və orta aylıq əməkhaqqının 44,5 faizinə bərabər olmuşdur.[19]
19. Ölkədə pensiya yaşının artırılması orta ömür həddinin artması ilə izah olunur. Dövlət Statistika Komitəsinin məlumatına əsasən 1970-ci ildən 2021-ci ilə qədər Azərbaycanda orta ömür həddi 66-73 yaş arasında dəyişib. Demək olar ki, ölkədə ömür həddinin ciddi şəkildə artması müşahidə olunmur. Orta ömür həddi qadınlar üçün 71-75 yaş arasında, kişilər üçün isə 66-71 yaş arasında dəyişir.[20] Buradan aydın olur ki, orta ömür həddi ilə pensiya yaş həddi arasında kəskin fərq yoxdur. Belə ki, qüvvədə olan pensiya yaşına nəzərən kişilərin pensiya almaq hüququ ortalama 5 il, qadınların isə bu hüququ 9 ilə bərabər olur. Qeyd olunan müddətlər çkifaytə qədər azdır, həm kişilər, həm də qadınların pensiya almaq hüquqlarının daha uzun müddət davam etməsi üçün onların pensiya yaşının azaldılmasına ehtiyac var. Bir çox Avropa ölkələrində orta ömür həddi kişi və qadınlar

---

[17] "Əmək pensiyaları haqqında" Qanun https://www.e-qanun.az/framework/11566 Article, 8 and 9

[18] Azərbaycan Respublikasında İnsan hüquqlarının qorunması haqqında AR İnsan hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2022-ci il üzrə hesabatı https://ombudsman.az/az/view/pages/59

[19] Ölkədə sosial təminat haqqında Dövlət Statistika Komitəsinin hesabatı, 2022 https://stat.gov.az/news/index.php?lang=az&id=5285

[20] Dövlət statistika Komitəsinin Hesabatı https://www.stat.gov.az/source/demoqraphy/

üçün 73-80 yaş arasında dəyişir.[21] Bununla da həmin ölkələrdə pensiya yaş həddinin 62-65 yaş aralığında dəyişdiyini görə bilərik.[22] Bu da onu deməyə əsas verir ki, kişilərin pensiya almaq hüququ ortalama 10 il, qadınların isə bu hüququ 14 ilə bərabər olur. Azərbaycanda orta ömür həddi dəyişməyəcəyi halda vətəndaşların pensiya almaq hüququ da qeyd olunan müddətlərlə məhdudlaşa bilər. Hesab edirik ki, orta ömür həddini də nəzərə almaq şərtilə pensiya yaşı azaldılmalıdır.

**4. Tövsiyyə və təkliflərin Xülasəsi:**

20. Ümumiyyətlə, Azərbaycanın minimum əmək haqqının, işsizlikdən sığorta ödənişinin və digər sosial ödənişlərin yaşayış minimumuna uyğunlaşdırılması, habelə kişilər və qadınlar arasında müxtəlif pensiya yaşının olmasının qadınların hüquqlardan bərabər istifadəsinə təsirinin öyrənilməsi, habelə qadın və kişilər arasında pensiya yaş fərqinin aradan qaldırılması ilə bağlı olan məsələlərin həllində ciddi və köklü dəyişikliklər edilməmişdir. Qanunvericilikdə həyata keçirilən əlavə və dəyişikliklər qeyd olunan öhdəliklərin tam icrasını ehtiva etmir və problemlərin aradan qalxmasına rəvac vermir.
21. İqtisadi, mədəni və sosial hüquqlar Komitəsinin Azərbaycan dövlətinə münasibətdə qəbul etdiyi tövsiyələrə[23] uyğun olaraq VHI aşağıdakıları tövsiyə edir:

21.1. Minimum əmək haqqının respublika üzrə müəyyən olunan orta aylıq əmək haqqı məbləğinin yarısına uyğunlaşdırılması;
21.2. Əhali, xüsusilə aztəminatlı ailələrin və digər həssas qruplara daxil olan vətəndaşların sosial müdafiəsinin yaxşılaşdırılması üçün minimum pensiya məbləği və digər sosial ödənişlərin məbləğinin müəyyən edilməsi (artırılması) zamanı ərzaq, qeyri-ərzaq məhsullarının, kommunal xidmətlərin, habelə icbari ödənişlərin məbləğinin artmasının nəzərə alınması;
21.3. Yaşa görə pensiya almaq hüququna malik olmaq üçün tələb olunan şərtlərə yenidən baxılmaqla "Əmək pensiyaları haqqında" qanuna dəyişiklik edilməsi;
21.4. Azərbaycanda orta ömür həddinin az olduğunu nəzərə alaraq pensiya almaq hüququndan daha uzun müddət yararlanmaq üçün kişi və qadınların pensiya yaşının azaldılması ilə bağlı "Əmək pensiyaları haqqında" Qanuna müvafiq dəyişikliklərin edilməsi.

---

[21]United Nations, Department of Economic and Social Affairs , World Population Prospects 2022 https://www.un.org/development/desa/pd/sites/www.un.org.development.desa.pd/files/wpp2022_summary_of_results.pdf
[22] https://tradingeconomics.com/country-list/retirement-age-men
[23] Concluding observations on the third periodic report of Azerbaijan, adopted by Committee on Economic, Social and Cultural Concluding observations on the 3rd periodic report of Azerbaijan, adopted by the Committee at its 50th session, 29 April-17 May 2013 : (un.org) (page 3 , 4) ; Concluding observations on the fourth periodic report of Azerbaijan, adopted by Committee on Economic, Social and Cultural at its 57th meeting, held on 15 October 2021 G2131332.pdf (un.org) (page 6)